Türkiyə

**Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Türkiyə-Azərbaycan Dərnəklər Federasiyası və İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə İstanbulda müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Xalqın adamı" adlı tədbir keçirilib. Tədbirdə siyasi partiyaların, vətəndaş cəmiyyətinin nümayəndələri, İstanbulda yaşayan soydaşlarımız və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.**

# İstanbulda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir






İlk öncə dahi lider Heydər Əliyevin və iki dövlətin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Türkiyə və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Türkiyə-Azərbaycan Dərnəklər Federasiyasının sədri Ədalət Turanın qonaqları salamlamasından sonra "Heydər Əliyev və Azərbaycan diasporu" adlı sənədli film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyev türk dünyasının qüdrətli liderlərindən biri olan Heydər Əliyevin həyat və fəaliyyəti barədə danışıb. Ümummilli liderin zəngin həyat yolundan Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişafındakı əvəzsiz xidmətlərindən, "bir millət, iki dövlət" adlandırdığı Türkiyə-Azərbaycan dostluq və qardaşlığından bəhs edib. Komitə sədri deyib ki, Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri olduğu dövrlərdə qardaş ölkə ilə əlaqələrin genişlənməsinə öz töhfəsini verib. 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra isə münasibətlər yüksələn xətt üzrə inkişaf edib. Türkiyədə prezident seçkilərinin ikinci turunun 28 May - Müstəqillik Gününə təsadüf etdiyini vurğulayıb. O, seçkinin nəticəsinin Türkiyədə olduğu kimi, Azərbaycanda da böyük sevinc və coşqu ilə qarşılandığını, dövlətlərimiz arasında siyasi və iqtisadi birliyin daha da güclənəcəyinə əmin olduğunu bildirib.

İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Məhsəti Şərif Özyürek çıxışında kütləvi informasiya vasitələrinə həssas münasibəti ilə hər zaman fərqlənən, jurnalistlərin əməyini yüksək qiymətləndirən, sağlığında "Jurnalistlərin dostu" mükafatını qazanan dahi lider Heydər Əliyevlə bağlı xatirələrini tədbir iştirakçılarıyla bölüşüb. M.Ş.Özyürek deyib ki, Azərbaycanda söz, fikir və mətbuat azadlığının formalaşması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli siyasətçi müstəqil dövlətimizdə sözün həqiqi mənasında azad, xalqa xidmət edən jurnalistikanın formalaşmasına böyük töhfələr vermiş, mətbuatın qaldırdığı problemlərə həssaslıqla yanaşmışdır. Heydər Əliyev həm ölkə daxilində, həm də xaricə səfərləri zamanı onu müşayiət edən mətbuat nümayəndələrinə xüsusi diqqət ayırmış, jurnalistlərin suallarını təmkinlə və səmimi şəkildə cavablandırmış, onların fəaliyyəti ilə yaxından maraqlanmışdır. Məhz bu xüsusiyyətlər dahi lideri ölkə jurnalistlərinin sevimlisinə, dostuna çevirmişdir.

Tədbirdə Vətən Partiyasının sədri dr. Doğu Perinçek, Ədalət və İnkişaf Partiyasının üzvü, 2011-2018-ci illərdə Türkiyə Böyük Millət Məclisinin üzvü Metin Külünk çıxış ediblər. Onlar qeyd edibər ki, Türk dünyası böyük şəxsiyyətlər yetişdirib, onların sırasında adları tarixə qızıl hərflərlə yazılmış Mustafa Kamal Atatürk və Heydər Əliyev hər zaman fəxr və qürurla yad ediləcək: "Heydər Əliyevin ideyaları həmişə yaşayacaq, Türkiyə və Azərbaycan dövlətlərinin milli birliyi, sarsılmaz qardaşlığı daha da möhkəmlənəcək".

Tədbirdə Eskişəhər Azərbaycanlılar Dərnəyinin üzvü, "Üç cizgi" jurnalının əməkdaşı Gülgün Abbasbəyli, "Dayanıqlı liderlik çərçivəsində Heydər Əliyevin Azərbaycan gəncləri siyasəti" mövzusunda çıxış edib.

Tədbir müğənni Elgün Quliyevin ifasında Heydər Əliyevin sevdiyi Azərbaycan mahnılarından ibarət konsert proqramı ilə yekunlaşıb, ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş fotosərgi nümayiş etdirilib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**